AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
NAXÇIVAN BÖLMƏSİ

*Əlyazması hüququnda*

CAVİDAN AĞARƏHİM OĞLU RƏHİMOV

# AZƏRBAYCAN RESPUBLİKASINDA VERGİ BORCLARININ ÖDƏNİLMƏSİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

**İxtisas: 5301.01- Daxili fiskal siyasət və dövlət maliyyəsi**

**İqtisad üzrə fəlsəfə doktoru elmi
dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**AV T O R E F E R A T I**

NAXÇIVAN – 2015

Dissertasiya işi AMEA İqtisadiyyat İnstitutunun "Maliyə və pul-kredit" şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Mübariz Məmmədhüseyn oğlu Bağırov**
iqtisad üzrə elmlər doktoru, professor

**Rəsmi opponetlər:** **Əli Xudu oğlu Nuriyev**
AMEA-nın müxbir üzvü, i.ü.e.d., prof.

**Mehdi Siyavuş oğlu Bağırov**
iqtisad üzrə fəlsəfə doktoru, dosent

**Aparıcı təşkilat:** Azərbaycan Dövlət İqtisad Universitetinin "Vergi və vergiqoyma" kafedrası

Müdafiə 27 iyun 2015-ci ildə saat _ -da AMEA Naxçıvan Bölməsinin nəzdində fəaliyyət göstərən D.01.211 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** AZ 7000, Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 76, AMEA Naxçıvan Bölməsi, əsas bina, akt zalı.

Dissertasiya işi ilə AMEA Naxçıvan Bölməsinin elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat "___" may 2015-ci il tarixdə göndərilmişdir.

**D.01.211 Dissertasiya**
**Şurasının elmi katibi:** **dosent E.A.Şıxəliyev**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Ölkədə aparılan radikal iqtisadi siyasətin ən vacib və mürəkkəb məsələsi vergi borclarının ödənilməsinin təmin edilməsi və tənzimlənməsidir[1]. Bazar iqtisadiyyatı şəraitində vergilər yeni iqtisadi məzmun almış, mahiyyətcə başqalaşmış, onun həm mexanizmi, həm də sosial-iqtisadi təbiəti dəyişmişdir. Vergilərin yeni xarakter alması cəmiyyətdə müxtəlif mülkiyyət formalı tədiyyəçilərin meydana gəlməsi və həmçinin çoxsaylı digər səbəblərlə əlaqədardır.

İqtisadi subyektlərlə dövlət arasındakı vergi münasibətləri bəzi inzibati müdaxilələri çıxmaq şərti ilə hüquqi bazaya əsaslanır.

Azərbaycan Respublikasında bazarın əsaslarının yaradılması bütün sahibkarlıq müəssisələrində maliyyə axınlarının təkmilləşdirilmiş tənzimləmə mexanizminin tətbiq olunmasını tələb edir. Məhz bu səbəb və ehtiyacdan vergilər əsas idarəetmə obyektinə çevrilirlər[2]. Bazar iqtisadiyyatına keçid şəraitində yuxarıda qeyd edilən səbəblər iqtisadi subyektlərdə verginin rolu və mənasına, iqtisadi mahiyyətinə, dövlətlə onlar arasındakı vergi münasibətlərinin inkişaf istiqamətlərinə, həmçinin onların vergiyə cəlb edilməsinə, yaranan vergi borclarının aradan qaldırılmasına yeni yanaşma, yeni mövqe tələb edir[3]. Məhz bu səbəblərdən də bazar iqtisadiyyatı şəraitində iqtisadi subyektlərin fəaliyyətinin dərindən tədqiq edilməsi, onların vergiyə cəlb olunması, yaranan vergi borclarının aradan qaldırılması, ödənişinin təmin edilməsi problemlərinin yeni tərzdə, yeni dövrə uyğun işlənməsi müasir dövr tədqiqatçılarının mühüm vəzifələridir.

Müasir dövrdə Azərbaycan iqtisad elmində vergilərin rolu, mahiyyəti, vergi münasibətləri, onların formalaşması, vergiyə cəlbetmə, vergiqoyma, vergi vasitəsilə tənzimləmə, vergi auditi, vergi uçotu və vergi borcları və s. mövzularda xeyli tədqiqat aparılmış, dərslik və vəsaitlər yazılmışdır. Bu sahədə A.F.Musayevin, M.Sadıqovun, D.A.Bağırovun, M.X.Həsənlinin, G.Sadıqovanın, A.M.Kərimovun, Ş.Ş.Bədəlovun, T.Paşayevin, R.Məhərrəmovun, Z.F.Məmmədovun, Y.A.Kəlbəliyevin, A.E.Kərimovun, N.Quliyevin, L.Əhmədovun və başqalarının əsərləri diqqəti cəlb edir. Rus iqtisadçılarından N.Turgenev, D.P.Boqolepov, L.İ.Lvov, A.A.Sokolov və

---

[1]Azərbaycan Respublikasının Vergi Məcəlləsi. Bakı: Qanun, 2009, s. 3.

2Allahverdiyev D. Büdcə-vergi siyasəti və iqtisadi təhlükəsizlik. Bakı: İqtisad Universiteti, 2002, s. 47.

[3] Bağırov D.A. Vergi nəzarəti. Bakı: Təfəkkür Universiteti nəşriyyatı, 2000, s. 382.

başqaları əsasən vergi və vergi münasibətləri sahəsində tədqiqat aparmışlar. Qərbin alimləri C.M.Keyns, P.Samuelson, A.Laffer, C.Stiqlets və başqaları zəruri vergi konsepsiyaları irəli sürmüşlər.

Tədqiqat göstərir ki, vergilərin növlərinin, saylarının, vergiyə cəlbetmə mexanizminin, yaranan vergi borclarının, həmçinin, onların yaranma səbəbləri və aradan qaldırılması istiqamətlərinin öyrənilməsi sahəsində müəyyən problemlər movcuddur.

İqtisadi subyektlərin, təşkilatların vergiyə cəlb edilməsi ilə bağlı vergi siyasətinin istiqamətləri və mexanizminin ölkədə gedən makro və mikro-iqtisadi proseslərə təsirini öyrənən, onun praktiki məsələlərə tətbiqini mümkün edən kifayət qədər tədqiqat işi yoxdur. İqtisadi subyektlərin vergiyə cəlb edilməsinin, müxtəlif səbəblərdən vergi borclarının əmələ gəlməsi və onların aradan qaldırılmasının, yəni vergi borclarının ödənişinin təmin edilməsinin iqtisadi-təşkilati mexanizminin tədqiq edilməsi zərurəti məhz bu ehtiyacdan yaranmışdır. Bu baximdan təqiq olunan problem aktualdir. Dissertasiya mövzusunun seçilməsi, onun məntiqi və daxili quruluşu da bu zərurətdən irəli gəlmişdir.

**Tədqiqatın obyektini** Azərbaycan Respublikasında mövcud olan müxtəlif mülkiyyət formalı iqtisadi subyektlərin fəaliyyətinin vergi tənzimlənməsi və vergilərin hesablanmasını vergi borclarının yaranması və həmçinin onların ödənilməsi ilə bağlı vergi münasibətləri təşkil edir.

**Tədqiqatın predmetini** Azərbaycanın və xarici ölkələrin iqtisadi alimlərinin elmi tədqiqatlarında, əsərlərində yaradılan, əks etdirilən vergi münasibətlərinin hüquqi bazasını, dövlətin vergi siyasətini, vergi mexanizminin hazırlanması və tətbiqini, vergi rejimlərinin təqdirinə dair konsepsiyalar təşkil edir. Bunun üçün dövri mətbuatda dərc edilən tədqiqat işlərinin nəticələri istifadə olunmuşdur.

**Tədqiqatın məqsədi.** İqtisadi subyektlərin fəaliyyətinə təsir edən vergi siyasətinin və dövlətin vergi tənzimlənməsi mexanizminin sistemləşdirilməsi, verginin idarə edilməsi problemi ilə bağlı olan metodik yanaşmaların işlənməsidir.

Məqsədə uyğun olaraq aşağıdakı vəzifələr qarşıya qoyulmuş və yerinə yetirilmişdir:

— ölkənin iqtisadi həyatının makro və mikro səviyyələrində vergi tənzimlənməsi konsepsiyalarının öyrənilməsi;

— ayrı-ayrı ölkələrdə iqtisadiyyatın inkişafının müxtəlif mərhələlərində vergi tənzimlənməsi konsepsiyalarının öyrənilməsi;

— vergi siyasətinin, onun istiqamətlərinin və tənzimlənməsi üsullarının

inkişaf etdirilməsinin əsas mərhələlərinin sistemləşdirilməsi;

— vergi siyasətinin və vergi tənzimlənməsinin iqtisadi subyektlərin, təşkilatların fəaliyyətinə təsirinin tədqiq edilməsi;

— iqtisadi subyektlərlə, təşkilatlarının vergiyə cəlb edilməsi sisteminin metodikasının işlənməsi;

— iqtisadi subyektlərin fəaliyyətində maliyyə dəstəyi kimi istifadə edilən vergilərdən istifadənin səmərəliliyinin müəyyən edilməsi əsaslarının, metodikasının hazırlanması;

— iqtisadi subyektlərdə vergi borclarının yaranması səbəblərinin araşdırılması;

— vergi borclarının ödənişinin təmin edilməsinin üsul və yollarının işlənib hazırlanması;

— vergi borclarının idarə edilməsinin metodikasının hazırlanması;

— iqtisadi subyektlər tərəfindən vergilərin hesablanması və büdcə sisteminə ödənilməsi ilə bağlı problem və meyillərin öyrənilməsi;

— iqtisadi subyektlər tərəfindən vergilərin hesablanması və büdcə sisteminə ödənilməsinin təkmilləşdirilməsi ilə bağlı tövsiyələrin işlənib hazırlanması;

— iqtisadi subyektlərdə vergilərin planlaşdırılması və proqnozlaşdırılmasının təkmilləşdirilməsi.

**Tədqiqat işinin elmi yeniliyi.** Mövcud nəzəri materialların və Azərbaycandakı vergi qanunvericiliyinin dərin təhlili nəticəsində verginin iqtisadi məzmunu müəyyən edilmişdir;

— iqtisadiyyatın dövlət tərəfindən idarə edilməsi sisteminin vergi vasitəsilə tənzimlənməsinin mənası və rolu müəyyən edilmişdir;

— iqtisadi subyektlərin fəaliyyətinin, onların əməliyyatlarının vergiyə cəlb edilməsinin və bu sahədə aparılan vergi siyasətinin üstün istiqamətləri müəyyən edilmiş və əsaslandırılmışdır;

— böhran siyasətində fəaliyyət göstərən iqtisadi subyektlərin fəaliyyətinin dövlətin vergi vasitəsilə tənzimlənməsinin əsas meyilləri müəyyən edilmişdir;

— iqtisadi subyektlərin vergiyə cəlb edilməsinin metodiki xüsusiyyətləri tədqiq edilmiş və onun iqtisadi mahiyyəti əsaslandırılmışdır;

— iqtisadi subyektlərin fəaliyyəti ilə, onların apardığı əməliyyatlarla bağlı olaraq pul axarlarının təhlilinin metodoloji qaydaları əsaslandırılmışdır;

— iqtisadi subyektlərin fəaliyyətində və vergilərlə idarəetmənin əsas vəzifələri formalaşdırılmış, onun həyata keçirilməsinin əsas istiqamət və

üsulları müəyyən edilmişdir;

— iqtisadi subyektlərin fəaliyyətinin, onların apardığı əməliyyatların vergiyə cəlb olunmasını həyata keçirmək vasitəsi olan vergi menecmentinin əsas istiqamətləri müəyyən edilmiş, onun iqtisadi məzmunu əsaslandırılmışdır;

— iqtisadi subyektlərdə vergi borclarının yaranması səbəbləri və şəraiti tədqiq edilmiş, təhlillər aparılaraq təkliflər verilmişdir;

— vergi borclarının ödənişinin təmin edilməsinin üsul və yolları işlənib hazırlanmış, bu sahədə yeni təkliflər verilmişdir;

— vergi borclarının idarə edilməsinin yeni metodikası işlənib hazırlanmışdır;

— tədqiqat nəticəsində iqtisadi subyektlərin vergi siyasətinin əsas istiqamətləri müəyyən edilmiş, onun sosial-iqtisadi məzmunu açılmışdır;

— iqtisadi subyektlərin əməliyyatlarının vergiyə cəlb edilməsinin planlaşdırılması və proqnozlaşdırılmasının əsas istiqamətləri və üsulları müəyyən edilmişdir.

**Tədqiqat işinin nəzəri və praktiki əhəmiyyəti** iqtisadi subyektlərin apardığı əməliyyatların vergiyə cəlb olunmasına, vergi borclarının yaranmasına və onun ödənişinin təmin edilməsinə kompleks yanaşma vasitəsilə müəyyən edilir. Belə yanaşma ölkə iqtisadiyyatındakı müasir vəziyyəti, iqtisadiyyatı, onun əsas sahəsi olan maliyyə sisteminin özünəməxsus xüsusiyyətlərini nəzərə almaqla həyata keçirilə bilər. Çünki bu yolla dövlət tərəfindən vergi tənzimlənməsinin rolunun və əhəmiyyətinin yüksəlməsinə istiqamətlənmiş siyasət aparılır.

Tədqiqat nəticəsində əldə olunmuş nəticə və təkliflər dövlət səviyyəsində vergiqoyma, vergiyəcəlbetmə, vergi auditi, vergi siyasətinin formalaşdırılması vergi borclarının yaranması, onların ödənişinin təmin edilməsi və s. kimi həllində, həmçinin iqtisadi subyektlərin vergiyə cəlb edilməsinin təşkilində istifadə edilə bilər.

Tədqiqat işində mövcud olan təkliflər və tövsiyələr iqtisadi subyektlərin vergiyə cəlb edilməsi sahəsində, yeni, yüksək təkmil səviyyədə vergi münasibətləri yaratmaqla, vergilərin hesablanması və ödənilməsi ilə bağlı olan neqativ təzahürlərin aradan qaldırılmasına, iqtisadi subyektlərdə pul axınlarının hərəkətinə normal şəraitin yaradılmasına, bu təşkilatların maliyyə vəziyyətinin normallaşdırılmasına, sabitləşdirilməsinə və s. şərait yaradır.

**Tədqiqatın praktiki nəticələrindən** iqtisadi subyektlərin fəaliyyətində və həmçinin onların büdcə ilə hesablaşmalar aparması prosesində istifadə etmək tövsiyə olunmuşdur.

Tədqiqat işinin materialları mühazirə və seminarlarda, bank işçiləri, auditorlar, mühasiblər, iqtisadçılar və sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslərə aparılan praktiki məşğələlərdə, həmçinin tələbələrlə aparılan tədris prosesində "Vergi sistemi", "Vergi qanunvericiliyi", "Vergi və vergiqoyma", "Vergi proqnozlaşdırılması", "Müəssisələrdən vergilər", "Vergi xidmətinin hüquqi əsasları" adlı mühazirə kurslarında istifadə edilir.

**Tədqiqatın sturukturu.** Dissertasiyaya giriş, üç fəsil, nəticə və kitabiyyatdan ibarətdir.

## İŞIN ƏSAS MƏZMUNU

Disertasiyanın giriş hissəsində mövzunun aktuallığı, problemin öyrənilmə səviyyəsi, tədqiqatın məqsəd və vəzifələri, obyekti, nəzəri-metodoloji əsasları, informasiya bazası, elmi yeniliyi, təcrübi əhəmiyyəti göstərilir.

Tədqiqatın birinci fəsli "Bazar iqtisadiyyatı şəraitində vergi siyasəti və onun tənzimlənməsi" adlanır. Burada bazar iqtisadiyyatı şəraitində verginin iqtisadi məzmunu və sosial-iqtisadi təbiəti nəzərdən keçirilmiş geniş təhlillər aparılmışdır, sonra mövcud vergi nəzəriyyələri və dövlətin idarə olunmasında bu nəzəriyyələrin rolu təhlil edilmiş, vergi tənzimlənməsinin iqtisadi subyektlərin fəaliyyətinə təsiri məsələləri diqqətlə öyrənmiş, təhlil olunmuş və onlara dair yeni münasibət ortaya qoyulmuşdur. Bunun üçün tədqiqatda bir çox tanınmış rus və azərbaycan alimlərinin mövqeləri təhlilə cəlb olunmuşdur.

Bazar iqtisadiyyatı şəraitində vergilər dövlətin əlində xüsusi bir alətə çevrilir. Onların vasitəsilə hakimiyyət orqanları iqtisadiyyatın dövlət tənzimlənməsi siyasətini, müxtəlif səviyyələrdə büdcə gəlirlərinin və büdcədənkənar dövlət fondlarının formalaşdırılmasını, istehsalın stimullaşdırılmasını, iqtisadiyyatın müxtəlif sahələrində zəruri manevrlərin reallaşmasını, qiymət artımının və inflyasiyanın məhdudlaşdırılmasını, həmçinin dövlətin iqtisadiyyat sahəsindəki digər vacib tədbirlərinin səmərəliliyini həyata keçirirlər.

Vergilərin mahiyyətinə, onun sosial-iqtisadi təbiətinə dair fikirlərə Azərbaycan alimlərinin də tədqiqatlarında rast gəlmək olur. Belə ki, iqtisad elmləri doktoru M.Həsənli V.N.Sutorminin fikrinə əsaslanaraq qeyd edir ki,

vergilər dövlət xərclərinin maliyyələşdirilməsi üçün dövlət tərəfindən mili gəlirin bir hissəsinin başlıca olaraq zəhmətkeşdən məcburi və əvəzsiz qaydada tutulması üzrə pul münasibətlərinin məcmusudur (M.X.Həsənli Vergilər (birinci buraxılış). B., Şərq-Qərb. 1998. 416 s.)

Bizim fikrimizcə, vergi siyasəti dövlətin iqtisadi siyasətinin tərkib hissəsi olmaq etibarılə konkret ölkədə müəyyən istiqamətə malik olan, müəyyən vaxt çərçivəsi, zamanı, dövrü ilə məhdudlaşan, iqtisadiyyatın tənzimlənməsinin elmi cəhətdən əsaslandırılmış və iqtisadi cəhətdən məqsədəuyğun taktiki və strateji üsullarının məcmusunu təşkil edir.

Təşkilatların fəaliyyətinə təsir edən ən mühüm vergi tənzimlənməsi amili vergi ödmələrinin həcmidir. Aparılan təhlillər göstərir ki, təşkilatların faktiki əldə edilmiş mənfəətdən az səviyyədə vergi ödədikdə bu onun fəaliyyətinin son nəticələrinə müsbət, qalan iki halda, yəni faktiki əldə olunmuş mənfəət həcmində və ya ondan çox ödədikdə mənfi təsir göstərir.

Bütün iqtisadi subyektlər öz fəaliyyətlərini maksimum dərəcədə mümkün olan səviyyədə mənfəət əldə edilməsinə istiqamətləndirirlər. Vergilər ödənildikdən sonra qalan mənfəət təşkilatın perspektiv inkişafını təmin edən layihələrin həyata keçirilməsinə, fəaliyyətlərinin hərtərəfli genişləndirilməsinə yönəldilir. Fəaliyyətin belə genişləndirilməsi xərclərin həcminin artımı, eyni zamanda vergi ödəmələrinin artımı ilə müşayiət olunur ki, bu bəzən mənfi nəticələrə gətirib çıxarır. Beləliklə, konkret vergi vəziyyəti təşkilatını maliyyə vəziyyətini ağırlaşdıra bilər. Ona görə də təşkilatlarda verginin optimallaşdırılmasının həyata keçirilməsi çox zəruri məsələdir.

Tədqiqat işinin II fəsli "Azərbaycan Respublikasında vergi daxilolmalarının müasir vəziyyətinin təhlili" adlanır. Burada tədqiq edilən problemin əsas məsələləri olan vergi daxilolmalarının və vergi borclarının müasir vəziyyəti geniş təhlil edilmişdir. Bunun üçün bu fəsildə mövcud vergi növləri üzrə və həm də iqtisadiyyatın sahələri üzrə vergi daxilolmalarının 2001-2012-ci illəri əhatə edən dövr ərzində dinamikası nəzərdən keçirilmişdir. Paralel olaraq 1997-2012-ci illər ərzində vergi borclarının vəziyyəti geniş təhlil olunmuşdur.

Ölkədə vergi daxilolmalarının vəziyyətini öyrənmək, onun mənfi, müsbət meyillərini təhlil etmək üçün Vergilər Nazirliyinin məlumatları əsasında tərtib edilmiş aşağıdakı göstəricilərə nəzər salaq (cədvəl 1.)

Cədvəl Azərbaycan Respublikası Vergilər Nazirliyinin məlumatlarına əsasən müəllif tərəfindən tərtib olunmuşdur.

Cədvəl 1. Ümumi daxili məhsulun, büdcə gəlirlərinin və vergi daxilolmalarının müqayisəli dinamikası

| S/s | İllər / Göstəricilər | 2001 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2012 |
|---|---|---|---|---|---|---|---|---|
| 1 | Ümumi daxili məhsul, (mln. manatla) | 5 315,6 | 12 522,4 | 18 746,2 | 28 360,5 | 40137,2 | 1,5 | 41 574,7 |
| 1.1 | ÜDM-in artım tempi, %-lə | 111,1 | 126,4 | 134,5 | 125,0 | 110,8 | 109,3 | 109,0 |
| 1.2 | Adambaşına düşən ÜDM-in həcmi, (manatla) | 661,7 | 1 494,3 | 2 208,2 | 3 296,6 | 4 603,7 | 4 033,2 | 4 653,3 |
| 2 | Büdcə gəlirləri, milyon manatla | 784,8 | 2 055,2 | 3 868,8 | 6 006,6 | 10762,7 | 10 325,9 | 11 402,5 |
| 2.1 | Büdcə gəliri əvvəlki ilə nisbətən, %-lə | 127,7 | 136,2 | 188,2 | 155,3 | 179,2 | 95,4 | 110,4 |
| 2.2 | Büdcə gəlirlərinin ÜDM-də xüsusi çəkisi, %-lə | 14,8 | 16,4 | 20,6 | 21,2 | 26,8 | 29,0 | 27,4 |
| 3 | Vergi daxilolmaları, milyon manatla | 579,6 | 1 427,5 | 2 716,6 | 4 549,3 | 5 746,6 | 4 113,4 | 4 292,8 |
| 3.1 | Vergi daxilolmaları əvvəlki ilə nisbətən, %-lə | 113,6 | 142,0 | 190,3 | 167,5 | 126,3 | 71,6 | 104,4 |
| 3.2 | Vergi daxilol-malarının ÜDM-də xüsusi çəkisi, %-lə | 10,9 | 11,4 | 14,5 | 16,0 | 18,1 | 15,5 | 10,3 |
| 3.3 | Vergi daxilol-malarının büdcə gəlirin-də xüsusi çəkisi, %-lə | 73,9 | 69,5 | 70,2 | 75,7 | 53,4 | 39,8 | 37,6 |

Cədvəldən göründüyü kimi, tədqiqata cəlb edilən son üç ildə həm ümumi daxili məhsulun həcmi, həm də büdcə gəlirləri mütəmadi olaraq artmışdır. Lakin həmin dövr ərzində vergi daxilolmalarının həm ÜDM-də, həm də büdcə gəlirlərində xüsusi çəkisi azalmışdır.

Respublikada mövcud olan və tətbiq edilən bütün vergi növləri üzrə ümumi daxilolmalarını nəzərdən keçirib təhlil etsək vergi daxilolmalarının

mövcud, müasir vəziyyətini kompleks təhlil etmiş olarıq. Bunun üçün cədvəl 2-ə nəzər salaq.

Ölkədə son 6 il ərzində vergi daxilolmalarının vəziyyətini kompleks təhlil etmək, onun vəziyyətini hətərəfli araşdırmaq üçün qruplar üzrə vergi daxilolmalarını nəzərdən keçirək. Aparılan təhlillər göstərir ki, bütün vergi növləri üzrə ümumi daxilolmalarda xüsusi çəki etibarı ilə ən yüksək çəki birinci qrup vergilərə, yəni gəlirdən vergilərə (fiziki şəxslərin gəlir vergisinə və hüquqi şəxslərin mənfəət vergisinə) məxsusdur.

İkinci qrup vergilərə mülkiyyətdən vergilər (əmlak vergisi, torpaq vergisi, yol vergisi) aiddir ki, bu göstərici üzrə xüsusi çəki tədqiqata cəlb edilən illər ərzində heç vaxt 5% həddinə çatmamış və bütün növ vergiləri içərisində ən aşağı səviyyəyə malik olmuşdur.

Tədqiqat nəticəsində məlum olmuşdur ki, 2005-2010-cu illər ərzində Azərbaycan Respublikasında vergi növləri üzrə daxilolmalarda ikinci yer mal və xidmətlərdən tutulan vergilərə məxsusdur.

Qruplaşmaya görə ümumi daxilolmaları, təşkil edən digər mənbəyi dövlət rüsumları və sair daxilolmalar aid edilir.

Təhlil göstərir ki, vergi borcunun yaranması isə iqtisadi həyatın bütün sferalarına öz təsirini göstərir[1]. Məlum olduğu kimi vergi dərəcələrinin, vergi yükünün artıb azalması, həmçinin proqnozlaşdırılması vergilərin yığılmaması, ödənişlərin tam təmin edilməməsi, yəni vergi borclarının yaranması bazarın bütün subyektlərinə təsir edir. Vergi borcları bazarın subyektləri olan həm istehsalçılara, həm istehlakçılara, həm də dövlət büdcəsinə mənfi təsir göstərir.

Vergilərin dərəcələrinin artıb azalması və həmçinin vergilərin vaxtında ödənilməməsi səbəbindən borcların yaranması dövlət büdcəsi üçün çoxsaylı dəyişikliklər və fəsadlar yaradır. Belə ki, vergi dərəcələrinin artması iqtisadi subyektləri büdcəyə daxil olan pul axınlarının həcmini artırır, büdcənin maliyyələşdirmə imkanları genişlənir, büdcə sistemi qarşısında duran vəzifələr uğurla yerinə yetirilir. Əksinə, vergi dərəcələrinin azalması büdcəyə daxil olan pul axınlarının həcmini azaldır və nəticədə büdcənin maliyyələşdirmə imkanları azalır.

---

[1]Cəbiyev P.M. Azərbaycanda bazar iqtisadiyyatının formalaşması və inkişafı. Bakı: İqtisad Universiteti, 2000, s. 144.

Cədvəl 2. 2005-2010-cu illər ərzində Azərbaycan Respublikasında vergi növləri üzrə daxilolmaların dinamikası

| İllər Sahələr | 2005 | | 2006 | | 2007 | | 2008 | | 2009 | | 2010 | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Məbləğ mln.man. | Xüsusi çəki, % | Məbləğ mln.man. | Xüsusi çəki, % | Məbləğ mln.man. | Xüsusi çəki, % | Məbləğ mln.man. | Xüsusi çəki, % | Məbləğ mln.man. | Xüsusi çəki, % | Məbləğ mln.man. | Xüsusi çəki, % |
| 1. Gəlir-lərdən (mən-fəətdən vergilər) | 676,2 | 47,3 | 1787,7 | 65,8 | 3055,8 | 67,1 | 3501,7 | 60,9 | 1911,1 | 46,4 | 2010,0 | 47,0 |
| 1.1. Fiziki şəxslərin gəlir vergisi | 319,2 | 22,3 | 412,1 | 15,2 | 596,6 | 13,1 | 637,8 | 11,1 | 581,9 | 14,1 | 590,2 | 13,7 |
| 1.2. Hü-quqi şəxs-lərin mən-fəət ver-gisi | 357,0 | 25,0 | 1375,6 | 50,6 | 2459,2 | 54,0 | 22863,9 | 49,8 | 1329,2 | 32,3 | 1429,8 | 33,3 |
| 2. Mül-kiyyətdən vergilər | 64,7 | 4,5 | 85,6 | 3,1 | 117,2 | 2,6 | 171,4 | 2,9 | 108,9 | 2,6 | 152,3 | 3,5 |
| 2.1 Əmlak vergisi | 40,4 | 2,8 | 56,4 | 2,0 | 72,8 | 1,6 | 113,2 | 1,9 | 66,2 | 1,6 | 101,8 | 2,3 |
| 2.2.Tor-paq vergisi | 15,3 | 1,1 | 18,8 | 0,7 | 27,3 | 0,6 | 30,8 | 0,5 | 36,2 | 0,8 | 35,3 | 0,8 |
| 2.3. Yol vergisi | 9,0 | 0,6 | 10,3 | 0,4 | 17,1 | 0,4 | 27,4 | 0,4 | 16,5 | 0,03 | 15,2 | 0,3 |
| 3. Mal və xidmətlər dən tutu-lan vergi | 539,7 | 37,8 | 694,3 | 25,5 | 1171,6 | 25,7 | 1779,1 | 31 | 1783,1 | 43,3 | 1919,1 | 44,7 |
| 3.1. ƏDV | 346,2 | 24,2 | 400,5 | 14,7 | 669,6 | 14,7 | 1169,6 | 20,4 | 1180,2 | 28,7 | 1271,5 | 29,6 |
| 3.2.Aksiz-lər | 121,2 | 8,5 | 164 | 6 | 330,6 | 7,3 | 395,8 | 6,9 | 417,4 | 10,1 | 452 | 10,5 |
| 3.3. Mə-dən vergisi | 53,5 | 3,7 | 100,2 | 3,7 | 123,2 | 2,7 | 147,7 | 2,5 | 121,9 | 2,9 | 130,1 | 3 |
| 3.4. Sadə-ləşdiriliş vergi | 18,8 | 1,3 | 29,6 | 1,1 | 48,2 | 1 | 65,7 | 1,2 | 63,6 | 1,5 | 65,5 | 1,5 |
| 4. Digər daxilolma lar | 146,9 | 10,3 | 149,1 | 5,5 | 204,7 | 4,5 | 294,4 | 5,1 | 310,3 | 7,5 | 201,4 | 4,7 |
| 4.1. Döv-lət rüsu-mu | 35,7 | 2,5 | 33,5 | 1,2 | 50,1 | 1,1 | 59,9 | 1 | 72,5 | 1,8 | 89,5 | 2,1 |
| 4.2. Sair daxilolma lar | 111,2 | 7,8 | 115,6 | 4,2 | 154,6 | 3,4 | 234,5 | 4,1 | 237,5 | 5,8 | 111,9 | 2,6 |
| Cəmi | 1427,5 | 100 | 2716,6 | 100 | 4549,3 | 100 | 5746,6 | 100 | 4113,4 | 100 | 4292,8 | 100 |

Büdcəyə daxil olan vergilərin azalması nəticəsində dövlət büdcəsi azalır, nəticədə isə dövlət tərəfindən maliyyələşdirilən təşkilatlara dəstək azalır, zəifləyir və bir qayda olaraq, dövlət investisiyalarının həcmi azalır. Bu halların yaranmasının əsas səbəblərindən biri vergi dərəcəsinin azalmasıdırsa, digər mühüm bir səbəbi vergi borclarının yaranmasıdır.

Dövlət tərəfindən vergiyə cəlbetmənin şüurlu və məqsədyönlü şəkildə tənzimlənməsi diskresion fiskal siyasət adlanır. Məhz elə vergi borclarının dövlət tərəfindən tənzimlənməsi də qeyd edilən diskresion fiskal siyasətin tərkib hissəsidir.

Azərbaycan Respublikasında son illər ərzində vergi borcları ilə bağlı olan mühüm əlamətləri nəzərə almaqla real vəziyyəti nəzərdən keçirək. Vergilər Nazirliyi tərəfindən dərc olunmuş icmal nəşrlərinin məlumatları əsasında 01.01.1997-ci ildən başlamış 01.01.2012-ci ilədək olan tarix ərzində vergi borcları, onlara tətbiq edilən maliyyə sanksiyaları və onlara hesablanmış faizlərlə birgə kompleks təhlil aparaq (cədvəl 3.)

Vergilər Nazirliyi tərəfindən vergi borclarının uçotunun təşkil olunmuş qaydada aparılmasına 1997-ci ildən başlanmışdır. O zamandan bu günə kimi, yəni son 15 il ərzində vergi borclarına yanaşma kompleks şəkildə həyata keçirilir ki, bunun da əsas səbəbi vergi borclarının iqtisadi həyatımızda oynadığı əsaslı rol ilə bağlıdır. Çünki vergi üzrə proqnozlaşdırılan daxilolmalar yığılmadıqda və borca çevrildikdə ölkə miqyasında makrosəviyyədə problemlər yaradır. Bu problemlər çoxşaxəli, çoxsahəli və eyni zamanda çətin həll edilən məsələlərə çevrilir.

Vergi borclarının azaldılması üzrə tədbirlərin daha geniş tətbiq olunması nəticəsində 2012-ci ilin əvvəlinə vergi borcları 20% azalaraq 3088,1 mln.manat həddinə düşmüşdür.

Vergi borclarının müasir vəziyyəti təhlil edilərkən daha bir maraqlı problem, yəni vergi borclarının strukturu təhlil edilməlidir. Yəni ümumi vergi borcunun nə qədərinin əsas borcdan, nə qədərinin maliyyə sanksiyalarından və nə qədərinin hesablanmış faizlərdən ibarət olmasının öyrənilməsi, təhlil edilməsi çox zəruridir.

Əgər cədvəl 3.-ün göstəricilərinə əsaslansaq deyə bilərik ki, son beş il ərzində vergi borclarının daimi olaraq 52%-dən 67%-ə qədərini əsas borclar təşkil etmişdir. Maliyyə sanksiyalarının xüsusi çəkisi 4%-12% arasında dəyişmiş, qalan hissəsi isə hesablanmış faizlərin payına düşmüşdür.

Vergi borclarının müasir vəziyyətini təhlil etmək üçün nəzərdən keçirilməli çox vacib göstəricilərdən biri də ümumi vergi borcunun dövlət və qeyri-dövlət müəssisələrinin borclarının dinamikasıdır.

Cədvəl 3. Azərbaycan Respublikasında vergi borclarının həcmi (mln. manat)

| İllər | Məcmu vergi borcları | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | O cümlədən: | | | | | | |
| | Cəmi borcun məbləği | Əsas vergi borcu | Cəm borc da xüs. çək, %-lə | Maliyyə sanksiyaları | Cəm borc da xüs. çək, %-lə | Faizlər | Cəm borcda xüs. çək, %-lə |
| 01.01.1997 | 386,2 | | | | | | |
| 01.01.1998 | 187,0 | 139,9 | 74,8 | 10,4 | 5,6 | 36,7 | 19,6 |
| 01.01.1999 | 443,4 | 299.1 | 67,5 | 28,6 | 6,5 | 115.7 | 26,1 |
| 01.01.2000 | 1046,2 | 640,2 | 61,2 | 49,6 | 4,8 | 356,4 | 34,1 |
| 01.01.2001 | 1384,9 | 778,3 | 56,2 | 49,7 | 3,6 | 556,9 | 40,2 |
| 01.01.2002 | 1554,3 | 962,0 | 61,9 | 65,9 | 4,2 | 526,4 | 33,9 |
| 01.01.2003 | 1752,0 | 1227,8 | 70,1 | 65,2 | 3,7 | 459,0 | 26,2 |
| 01.01.2004 | 1658,3 | 1036,4 | 62,5 | 80,6 | 4,9 | 541,3 | 32,6 |
| 01.01.2005 | 1071,0 | 653,0 | 61,0 | 78,5 | 7,3 | 339,5 | 31,7 |
| 01.01.2006 | 2010,0 | 1410,8 | 70,2 | 101,6 | 5,1 | 497,6 | 24,8 |
| 01.01.2007 | 1933,9 | 1456,7 | 75,3 | 5,5 | 0,3 | 471.7 | 24,4 |
| 01.01.2008 | 2702,2 | 1804,4 | 66,8 | 109,7 | 4,1 | 788,1 | 29.2 |
| 01.01.2009 | 4151,1 | 2438,3 | 58,7 | 163,2 | 3,9 | 1549,6 | 37,3 |
| 01.01.2010 | 5465.1 | 2842,3 | 52,0 | 281,7 | 5,2 | 2341,2 | 42,8 |
| 01.01.2011 | 3847,3 | 2485,1 | 64,6 | 317,2 | 8,2 | 1045,1 | 27,2 |
| 01.01.2012 | 3089,1 | 1629,3 | 52,7 | 370,4 | 12,0 | 1089,4 | 35,3 |

Aparılan təhlillər göstərir ki, vergi borclarının əsas aparıcı hissəsi qeyri-dövlət müəssisələrinə aid olmuşdur. Buna səbəb isə qeyri-dövlət müəssisələrinin iqtiadiyyatda aparıcı rola malik olması, eyni zamanda bu təşkilatlarda maliyyə problemlərinin yüksək səviyyədə mövcud olmasıdır. Məhz buna görə də ümumi vergi borclarının üçdə ikisi yəni 66%-i qeyri-dövlət müəssisələrini aiddir.

Vergi borclarının müasir vəziyyətinin kompleks təhlili üçün çox vacib olan, nəzərdən keçirilməli bir göstərici də vergi növlərinin vergi borclarındakı xüsusi çəkisidir. Bu göstərici əsasında təhlili aparmaq üçün cədvəl 5-ə nəzər salaq.

Cədvəl 4. Azərbaycan Respublikasında ümumi vergi borclarında dövlət və qeyri-dövlət müəssisələrinin payı (mln.manat)

| İllər | Cəmi borc | Dövlət müəssisələri | | Qeyri-dövlət müəssisələri | |
|---|---|---|---|---|---|
| | | məbləği | ümumi borcun çəkisi,% | məbləği | ümumi borcun çəkisi,% |
| 01.01.2008 | 2702,2 | 970,2 | 35,90 | 1732,0 | 64,1 |
| 01.01.2009 | 4151,1 | 1269,0 | 30,57 | 2882,1 | 69,43 |
| 01.01.2010 | 5465,1 | 1549,0 | 28,35 | 3916,1 | 71,65 |
| 01.01.2011 | 3847,1 | 1422,9 | 36,99 | 2424,4 | 63,01 |
| 01.01.2012 | 3089,1 | 1234,6 | 39,97 | 1854,5 | 60,03 |
| Cəmi | 19254,8 | 6445,70 | 33,48 | 12809,1 | 66,52 |

Cədvəldən göründüyü kimi, borcların xüsusi çəki etibarı ilə ən yüksək yeri ƏDV-yə, sonra isə mənfəət vergisinə aiddir. Qalan vergi növləri isə xüsusi çəki etibarı ilə çox az bir çəkiyə malikdir.

Fikrimizcə, təkcə ƏDV və mənfəət vergisi üzrə borcların ödənişinin təmin edilməsi və ya ümumiyyətlə bu vergi növləri üzrə borcun yaranmasına imkan verilməməsi vergi siyasətində çox müsbət meyillərin yaranmasına gətirib çıxarar.

Tədqiqat işinin III fəsli "Azərbaycan Respublikasında vergilərin optimallaşdırılması və daxilolmaların proqnozlaşdırılması" adlanır. Burada tədqiqat üçün vacib olan vergiyyə cəlbetmənin və vergi borcları ödənilmələrinin təkmilləşdirilməsi istiqamətləri, vergiyə cəlb etmənin xarici təcrübəsi və onun Azərbaycanda tədbiqi prespektivləri və həmçinin vergi daxilolmalarının proqnozlaşdırılması istiqamətləri məsələləri baxılmış və geniş təhlillər aparılmış və nəticələr əldə olunmuşdur. Vergiqoymanın təkmilləşdirilməsi bütövlükdə vergi mexanizminin təkmilləşdirilməsinin tərkib hissəsidir. Bu proses çoxsaylı elementlərdən asılıdır. Onlardan ən vacibi və ölkə iqtisadiyyatının bütün sahələrinə təsir gücünə malik olan vergi yükü problemləridir. Bu əsas, həlledici parametr olmaq şərtilə həm makrosəviyyədə dövlətin siyasətinə və ümumilikdə iqtisadiyyata, həm də mikrosəviyyədə hər bir iqtisadi subyektin iqtisadi vəziyyətinə təsir etmək gücünə malikdir.

Cədvəl 5. Azərbaycan Respublikası üzrə vergi növlərinin vergi borclarında xüsusi çəkisi

| № | Vergi növləri | 01.01.2010-cu ilə vergi növünün vergi borclarında xüsusi çəkisi, %-lə | 01.01.2011 tarixə vergi növünün vergi borclarında xüsusi çəkisi, %-lə |
|---|---|---|---|
| 1 | Gəlir vergisi | 0,1 | 0,5 |
| 2 | Mənfəət vergisi | 20,7 | 25,7 |
| 3 | ƏDV | 68,5 | 60,1 |
| 4 | Aksizlər | 0,0 | 0,0 |
| 5 | Əmlak vergisi | 6,5 | 7,0 |
| 6 | Torpaq vergisi | 0,3 | 0,3 |
| 7 | MİÖMV (muzdlu işlərlə əlaqədar ödəmə mənbəyindən vergilər) | 0,5 | 0.8 |
| 8 | ÖMV (ödəmə mənbə-yindən vergilər) | 0.2 | 0,9 |
| 9 | Mədən vergisi | 0,0 | 0,0 |
| 10 | Sadələşdirilmiş vergi | 0,3 | 0,4 |
| 11 | Sair (dövlət rüsumu və s.) | 2,8 | 4,3 |
| 12 | Tədiyyələr üzrə cəmi | 100 | 100 |

Vergiqoymanın, vergiyə cəlbetmənin və ümumiyyətlə, vergi mexanizminin təkmilləşdirilməsi ölkənin həm iqtisadi, həm də ictimai, sosial həyatının çoxcəhətli sahələrini, problemlərini və məsələlərini əhatə edir. Qeyd edilən təkmilləşmənin aparılması vergi mexanizminin müasir tələblərə cavab verməsi, bu sahədə mövcud olan meyli və istiqamətlərin aradan qaldırılmasını, eyni zamanda daha bir vacib məsələnin vergi borcları məsələsinin vaxtında və keyfiyyətli həll olunmasını nizama salır.

Vergi mexanizminin təkmilləşdirilməsi özündə vergi sisteminin çoxsaylı məsələlərini birləşdirir. Bu, iqtisadiyyatın sahələri üzrə, vergi növləri üzrə vergi dərəcələrinin ölkədə aparılan iqtisadi siyasətin məqsəd və vəzifələrinə uyğun olaraq ya dəyişdirilməsi, ya artırılması, ya da azaldılması, vergilərin optimallaşdırılması, vergi bazasının genişləndirilməsi, vergi borclarının yaranmasının qarşısının alınması, vergi proqnozlarının yerinə yetirilməsinin təmin edilməsi, vergi daxilolmalarının təmin

edilməsində yeni texnologiyaların tətbiq edilməsi, vergi inzibatçılığının inkişaf etdirilməsi və s. kimi məsələləri birləşdirir.

Vergiqoyma və vergiyə cəlbetmə, vergi borclarının ödənişi sahəsində mövcud vəziyyət təhlil edilərkən bu sahələrdə xeyli sayda problemlərin olduğu meydana çıxır. Azərbaycanda bu sahədə mövcud vəziyyətin normal şəklə, yəni beynəlxalq tələblərə cavab verəcək bir qaydaya salınması heç də sadə bir məsələ deyildir. Bunun üçün ən vacib tədbir dünyanın qabaqcıl ölkələrinin təcrübəsinin öyrənilməsi və ölkəmizin iqtisadiyyatında tətbiq olunmasıdır.

Hər şeydən əvvəl qeyd etmək lazımdır ki, dünya təcrübəsindən öyrənilməli məsələlər vergiqoyma və vergiyə cəlbetmə təcrübəsi, vergi mexanizminin və vergi siyasətinin təkmilləşdirilməsi, vergi yükünün və vergi dərəcələrinin optimal variantının seçilməsi, vergi yükünün iqtisadi siyasətin məqsədlərinə uyğun olaraq azalıb artırılması, vergi bazasının genişləndirilməsi, vergi güzəştlərinin tətbiqi, vergi tətillərinin tətbiq olunması, vergidən azadolunmalar, verginin ötürülməsi (digər hüquqi və ya fiziki şəxsə) təcrübəsi, vergi qanunvericiliyinin işlənməsi, onun tətbiqi və təkmilləşdirilməsi və s. bu kimi məsələlərdir.

Dövlətin mövqeyinin müdafiə edilməsi baxımından vergi dərəcəsinin seçilməsi qiymətləndirici göstəricini müəyyən etməyi tələb edir. Əgər qiymətləndirmə baxımından növbəti il üçün dövlətə maksimum həddə gəlir seçilsə, bu halda sahibkarın bütün gəliri dövlət tərəfindən alınmalıdır. Belə yanaşma şəraitində vergi dərəcəsi 1-ə, yəni vahidə bərabər olur. Gəlir tam həcmdə dövlətə alındığı halda sahibkar öz fəaliyyətini dayandırmalı olur və növbəti ildə dövlət gəlirləri sıfıra bərabər olur. Beləliklə, dövlətin mövqeyi baxımından vergi dərəcəsinin qiymətləndirilməsi inteqral olmalı və kifayət dərəcədə uzun bir müddət dövrünü əhatə etməlidir.

Vergi daxilolmalarına nəzarətin həyata keçirilməsi üçün iqtisadi proqnozlaşdırma və məqsədli proqram yanaşmasının yeni metodlarının və texnologiyalarının tətbiq edilməsi çox zəruridir. Kompyuterdən və informasiya texnologiyalarından istifadə etməklə və müasir iqtisadi proqnozlaşdırma metodlarını tətbiq etməklə, vergiyə nəzarət planlarının tərtib edilməsi işlərini xeyli sadələşdirmək, pul axınlarının vəziyyətinə təsir edən meyillərin və amillərin inkişafını qabaqcadan duymaq olar. Əlverişsiz meyillər və amillər aşkar edildikdə bu metodlar pul axınlarının yaxşılaşdırılması, ayrı-ayrı ərazi idarələrində vəziyyətin sabit saxlanması məqsədilə vəziyyətə düzəliş etmək üçün şərait yaradır. Bundan əlavə, tərtib edilmiş proqnozlar xalq təsərrüfatı problemlərinin əsas inkişaf

istiqamətlərini müəyyən etməyə imkan verir. Proqnozun tərtib edilməsi həm də pul axınlarına təsir baxımından regionların və bütövlükdə ölkə iqtisadiyyatının inkişafı ilə bağlı tədbirlərin nəticələrini müəyyən etmək üçün də zəruridir.

Uzunmüddətli perspektiv üçün əvvəlcədən tərtib edilmiş vergi daxilolmaları proqnozları istehsalın səmərəliliyinə, inkişaf sürətinə və həmçinin sabit inkişafı təmin edən şəraitə təsir göstərən amillərdən miqyaslarını və müvafiq problemləri də vaxtında təyin etməyə imkan verir. Vergi daxilolmalarının əsaslandırılmış proqnozları ölkə miqyasında rəhbər dövlət və hökumət orqanlarını əhalinin gəlirlərinin və xərclərinin səviyyəsini müəyyənləşdirən ən mühüm iqtisadi göstəricilərin formalaşdırılması perspektivləri, onların nisbəti və deməli, pul axınlarının vəziyyəti barədə zəruri iqtisadi informasiya ilə təmin etməlidir. Bu isə ölkənin xalq təsərrüfatında yarana biləcək əlverişsiz meyillərin qarşısını vaxtında almağa imkan verir.

Azərbaycan Respublikasında vergi borclarının ödənilməsinin təmin edilməsi, vergi daxilolmalarının proqnozlaşdırılması, vergi sistemlərinin xarici təcrübəsinin öyrənilməsi və Azərbaycanda tətbiqi perspektivləri, vergilərin iqtisadiyyatdakı rolu və s. kimi vacib, zəruri problemlərin öyrənilməsi, təhlil edilməsi haqqında aparlan tədqiqat işi nəticəsində aşağıdakı nəticələri çıxarmaq olar.

Ölkə iqtisadiyyatının normal, sabit fəaliyyətinin vacib elementlərindən biri vergilərdir. Dövlət vergilər vasitəsilə ölkə iqtisadiyyatının idarə edilməsinin makro və mikrosəviyyədə öz məqsədlərinin yerinə yetirilməsini, büdcə siyasətini və bütünlükdə maliyyə siyasətini həyata keçirir.

Vergilər dövlət tərəfindən qanunvericilik qaydasında həyata keçirilən, iqtisadi subyektlərdən əvəzsiz olaraq dövlətin, cəmiyyətin xeyrinə alınan vəsaitlərdir. Onun səviyyəsinin artıb azalması dövlətin apardığı iqtisadi siyasədin məqsəd, vəzifə və prioritetlərindən asılı olur. Dövlət vergi güzəştləri, vergi tətilləri, vergidən azadolmalar və s. tətbiq etməklə zəruri saydığı sahələri və fəaliyyət növlərini stimullaşdıra bilir. Digər tədbirləri həyata keçirərək hər hansı bir fəaliyyət növünü məhdudlaşdıra bilir. Dövlətin iqtisadi siyasətinin prioritetlərindən asılı olaraq stimullaşdırmalar və ya məhdudiyyətlər tətbiq etmənin səviyyəsi müəyyənləşdirilir. Buradan belə bir nəticəyə gəlmək olar ki, vergilər dövlətin əlində iqtisadiyyatın idarə edilməsinin ən mühüm əlamətlərindən biridir.

Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, tədqiqata cəlb edilən illər ərzində Azərbaycan Respublikası üzrə vergi yükü 17.4% (2010-cu il) və

22.6% (2007-ci il) arasında dəyişilmişdir. Bu vergi ödəyicilərindən tutulan vergilər, yığımlar və sosial ayırmalar nəzərə alınmaqla ümumi əlavə dəyər üzrə mövcud olan səviyyədir.

Tədqiqata cəlb edilən illər ərzində vergi ödəyicilərindən tutulan vergilər, yığımlar və sosial ayırmalar nəzərə alınmaqla ümumi daxili məhsul üzrə vergi yükü 16.2% (2010-cu il) və 21.1% (2007-ci il) diapazonunda dəyişilmişdir.

Həmin illərdə Azərbaycan Respublikasında əsas cari qiymətlərdə ümumi əlavə dəyər üzrə vergi yükü 13.6% (2010-cu il) və 19.7% (2007-ci il) arasında dəyişilmişdir.

Tədqiqata cəlb eilən illərdə cari bazar qiymətlərində ümumi daxili məhsul üzrə vergi yükü 12.7% (2010-cu il) və 18.4% (2007-ci il) dəyişilmişdir. Rəqəmlərdən göründüyü kimi, vergi yükünün illər üzrə dəyişilmə diapazonunda ən aşağı göstəricilər 2010-cu ildə, ən yüksək göstəricilər isə 2007-ci ildə olmuşdur. Bu səviyyələrin dəyişilməsinə səbəb ondan ibarət olmuşdur ki, 2007-ci il ölkə iqtisadiyyatında dinamik inkişafın ən yüksək səviyyəyə çatdığı il olmuşdur. Həmin ildə digər iqtisadi göstəricilər kimi vergi yükü göstəricisi də özünün rekord səviyyəsinə çatmışdır.

Dünya ölkələrinin eyniadlı göstəricisi ilə müqayisədə Azərbaycan Respublikası üzrə göstərici aşağı səviyyədədir. Tədqiqatla əldə edilən nəticə bundan ibarətdir ki, hal-hazırkı şəraitdə respublika üzrə vergi bazası genişləndirilməli və bu əsasda vergilərin ümumi daxilolmaların həcmi artırılmalıdır.

Tədqiqatla müəyyən edilmişdir ki, tədqiqata cəlb edilən illər ərzində vergi daxilolmaları əvvəlki illərdə dinamikaya malik olmuş və ölkə iqtisadiyyatında sabit, dinamik inkişafı təmin edə bilmişdir. Daxilolmaların daimi təmin edilə bilməsi üçün hökumət tərəfindən aparılan vergi siyasəti düzgün olaraq seçilmiş və onun prioritetlərinin müəyyən edilməsi yolu ilə cəmiyyətin sosial problemlərinin həlli keyfiyyətlə icra olunmuşdur. Dövlət tərəfindən investisiya fəaliyyətinin güzəştli vergiyə cəlb etmə prosesinin tətbiq olunması, aqrar sektorun isə torpaq vergisi istisna olunmaqla bütün növ vergilərdən azad edilməsi dövlətin iqtisadi siyasətinin prioritaitlərindən birinə çevrilmişdir. Burada məqsəd investisiya qoyuluşlarının stimullaşdırılması və eyni zamanda kənd təsərrüfatı məhsullarının istehsalının stimullaşdırılmasından ibarət olmuşdur. Düzdür, vergiyə cəlbetmə tətbiq edilən güzəşt və azadolmalar vergi daxilolmalarının həcminə mənfi təsir etsə də, bu sahədə yarana biləcək sosial gərginliyin

aradan qaldırılması baxımından çox gərəklidir. İnvestisiyalarla bağlı güzəştlərin və azadolmaların tətbiq olunması sonradan vergi bazasının genişlənməsinə, yeni iş yerlərinin yaradılmasına, müxtəlif növ vergilərin tətbiqinə və məşğulluq problemlərinin həll edilməsinə yol açır. Aqrar sahədə azadolaların tətbiq olunması isə ölkədə həyata keçirilən ərzaq təhlükəsizliyi probleminin həllinə, regionların iqtisadi inkişaf proqramının reallaşdırılması və əhalinin ərzaq məhsulları ilə etibarlı təminatı ilə bağlı proqramın yerinə yetirilməsinə yönəldilmişdir. Bütün bu qeyd edilən proqramların yerinə yetirilməsi də gələcəkdə həm də etibarlı vergi ödəyiciləri dairəsinin genişləndirilməsini reallaşdıracaqdır. Tədqiqat nəticəsində bu barədə əldə edilmiş nəticələrdən biri də məhz vergi ödəyicilərinin keyfiyyət baxımından yaxşılaşdırılması, vergi ödəyiciləri ilə aparılan inzibatı işlərin gücləndirilməsi, vergi daxilolmalarının nəzərdə tutulan proqnozlar səviyyəsində təmin olunması üçün vergilərin optimallaşdırılmasından ibarətdir.

Aparılan tədqiqatlar göstərmişdir ki, təhlilə cəlb edilən illər üzrə ölkə iqtisadiyyatında külli miqdarda vergi borcları yaranmışdır. Onların yaranma səbəbləri çox müxtəlifdir. Həm iqtisadiyyatın sahələri üzrə, həm də vergi növləri üzrə bu məsələlərə baxış getdikcə məlum olmuşdur. Borcların yaranması həm makrosəviyyənin, həm də mikrosəviyyənin problemlər yaradan amilinə çevrilərək əviyyələr üzrə göstəricilərin aşağı düşməsinə səbəb olmuşdur. Təhlilə cəlb edilən illər içərisində elə illər olmuşdur ki, vergi borcları vergi daxilolmalarını üstələmişdir. Bəzi illərdə isə bu göstəricilər az qala bərabər səviyyədə olmuşdur.

Təhlillər göstərir ki, dünya təcrübəsində artıq formalaşmış olan bəzi elementlər hələ də bazar yönümündə yeni inkişafa başlamış ölkələrdə, o cümlədən Azərbaycanda da pozulmaqdadır. Məsələn, dünya təcrübəsindən aydındır ki, gəlir vergisi, əlavə dəyər vergisi və aksizlər üzrə heç zaman borclar yaranmır. Azərbaycanda isə vergi borclarının əsas hissəsi əlavə dəyər vergisi üzrə borclara aiddir. Belə ki, 2010-2011-ci illərdə ƏDV üzrə borclar ümumi borcların illər üzrə uyğun olaraq 68.5% və 60.1%-ni təşkil etmişdir. Gəlir vergisi üzrə də borclar yaranmış və illər üzrə uyğun olaraq ümumi vergi borcunda xüsusi çəki etibarilə 0.1% və 0.5% təşkil etmişdir. Borclar içərisində ikinci yer xüsusi çəkisinə görə mənfəət vergisinə aiddir. 2010-2011-ci illərdə uyğun olaraq bu növ vergi üzrə borcların ümumi borclardakı xüsusi çəkisi 20.7% və 25.7% olmuşdur. Bu növ vergi üzrə borcların son bir ildə 5% artması bu sahədə ciddi problemlərin olmasından xəbər verir. Bir tərəfdən iqtisadi subyektlərin məcmu mənfəəti artır, digər

tərəfdən isə mənfəət üzrə borcun xüsusi çəkisi artır. Belə bir paradoks yaranır. Əgər mənfəət varsa nəyə görə vergilər ödənmir?

Vergi borclarının kompleks təhlilə cəlb olunması bu sahədəki çatışmazlıqları tamamilə açıb ortaya qoymuşdur. Tədqiqata cəlb edilən illər ərzində yaranmış əsas vergi borcu məbləği daxilolmalara nisbətən 39.6% (2007-ci il) və 69.1% (2009-cu il) arasında dəyişilmişdir. Bu tədqiqat illərində ən aşağı və ən yuxarı səviyyə olmuşdur.

Ümumi borcların daxilolmalara nisbətən dəyişməsi 54.9% (2007-ci il) və 110.8% (2009-cu il) arasında olmuşdur. Bu rəqəmlərə əsasən təhlillər apararaq belə bir nəticəyə gəlmək olar ki, həm vergilərin planlaşdırılmasında, həm onların proqnozlaşdırılmasında ciddi səhflərə yol verilir ki, nəticədə də vergi borcları vergi daxilolmalarının nisbət göstəricilərinə belə anormal nəticələr artımına gətirib çıxarır. Fikrimizcə, makro və mikrosəviyyədə vergilər planlaşdırılması, proqnozlaşdırılması, vergi intizamına riayət olunması, vergi tənzimlənməsi və s. istiqamətlərdə həddən artıq ciddi tədbirlər görülməlidir. Həmin tədbirlər özündə inzibatçılığın gücləndirilməsini, planlaşmanın və proqnozlaşdırmanın təkmilləşdirilməsini, vergilərin səmərəliliyinin yüksəldilməsini, müasir sosial-iqtisadi şəraitə uyğun olaraq güzəşt və sanksiyaların ciddi şəkildə tətbiq edilməsini, vergi intizamını bilərəkdən pozanlara qarşı ağırlaşdırıcı maliyyə sanksiyalarının tətbiq edilməsini və s. nəzərdə tutmalıdır.

Tədqiqat nəticəsində əldə olunmuş nəticələrə görə vergiqoyma, vergiyə cəlbetmə, vergi tənzimlənməsi, vergi intizamının təkmilləşdirilməsi və s. istiqamətlərdə hüquqi bazanın daha da genişləndirilməsi, vergi siyasətinin, vergi rejiminin daha da liberallaşdırılması, vergitutma bazasının genişləndirilməsi, əlverişli vergi mühitinin formalaşdırılması və təkmilləşdirilməsi, sahibkarlığın, biznes fəaliyyətinin şəffaf rəqabət şəraitində daha da geniş inkişaf etdirilməsi, bu əsasda etibarlı vergi ödəyiciləri kontingentinin formalaşması, vergi idarəçilik sisteminin daimi olaraq təkmilləşdirilməsi, qabaqcıl ölkələrin mütərəqqi vergi sistemlərin təcrübəsinin öyrənilməsi və respublikamızın iqtisadiyyatında müasir vergi texnalogiyalarının tətbiq edilməsi, vergi maarifçiliyinin əhali arasında geniş yayılması, vergi nəzarət orqanları strukturunun təkmilləşdirilməsi, vergi nəzarətçilərinin peşəkarlıq səviyyəsinin yüksəldilməsi və s. günün ən zəruri məsələlərindən biridir.

**Tədqiqat işinin əsas müddəaları aşağıda dərc olunmuş elmi məqalə və tezislərdə öz əksini tapmışdır:**

1. Vergilərin planlaşdırılması və proqnozlaşdırılması // Odlar Yurdu Universitetinin Elmi Pedoqoji Xəbərləri, 2011, №32, s. 57-61.

2. Əlavə dəyər vergisi sosial inkişafın təminatı konteksində // Azərbaycan Vergi Xəbərləri jurnalı, 2010, №9, s. 35-47.

3. Vergi tənzimlənməsinin iqtisadi subyektlərin fəaliyyətinə təsiri // AMEA İqtisadiyyat İnstitutunun Elmi Əsərləri, 2012, №2, s. 191-197.

4. Vergi boclarının müasir vəziyyətinin təhlili // AMEA İqtisadiyyat İnstitutunun Elmi Əsərləri, 2012, №3, s. 165-174.

5. Vergiyə cəlb etmənin və vergi borcları ödənişlərinin təkmilləşdirilməsi istiqamətləri // Kooperasiya" elmi-praktiki jurnal, 2014, №4 (35), s. 254-262.

6. Налоговая политика как основа системной модернизация економика Азербайджана // Министерства Сельского Хозяйства РФ, Международный научный журнал, 2012, №2, стр. 44-47.

7. Налоговая реформа в Азербайджану / Государствееое регулирование экономики и повышение эффекивности деятельности субьектов хозяйствования. VIII Международная научно-практическая конференция, Сборник научных статей в двух частях, часть I, Минск 26-27 апреля 2012, стр. 114-115.

**Дж.А.Рагимов**

# Пути совершенствования выплаты налоговых задолженностей в Азербайджанской Республике

## РЕЗЮМЕ

Исследовательская работа состоит из введения, трех глав, заключения, списка литературы в количестве 128, 20 таблиц, 6 рисунков.

Первая глава исследования. «Налоговая политика и ее регулирование в условиях рыночной экономики». Налоги в условиях рыночной экономики превращаются в специальный инструмент в руках государтсва. С их помощью органы власти осуществляют политику государтсвенного регулирования экономики, формирование на различных уровнях бюджетных доходов и внебюджетных государтвенных фондон, стимулирование производства, реализацию необходимых маневров в различных сферах экономики, ограничение роста цен и инфляции, а также эффективность прочих важнейших мероприятий государства в области экономики.

Вторая глава исследования. «Комплексный анализ современного состояния налоговых поступлений в Азербайджанской Республике». Налоговая система выполняет несколько основных экономических функции в ходе осуществления своей деятельности. Первая функция заключается в обеспечении формирования в стране бюджетных доходов, вторая – в определении отношения денежных потоков на макроруровне, в том числе в формировании доходов населения страны за счет возможных средств, четвертая – в обеспечении общественного производства в экономике страны путем перераспределения и.т.д.

Третья глава исследования. «Оптимизация налогов и прогнозирование поступления в Азербайджанской Республике». Переходный этап в рыночные отношения в Азербайджанской экономике был завершен, в рамках единой финансовой и бюджетной политики, осуществляемой в стране, была сформирована система налогового администрирования, соответствующего совершенствованным, современным и мировым международным стандартам.

**J.A.Rahimov**

## The directions for improving of payment of tax debts in the Azerbaijan Republic

## SUMMARY

Research work consists of introduction, three chapters, result, 128 lists of literature, 20 schedules and 6 figures.

I Chapter of research "Tax policy and its regulation in the market economy". The taxes are changed into a special instrument in hands of the government. Through them the government authorities implement the policy of state regulation of the economy, formation of budget revenues and extrabudgetary state funds at various levels, stimulation of production, realization of necessary maneuvers in different fields of economy, limitation of price increase and inflation, as well as efficiency of other important measures of state in the sphere of economy.

II Chapter of research "Complex analysis of modern state of tax revenues in the Azerbaijan Republic"

During its activity the tax system carries out some principal economic function. The first and most important of them is ensuring of formation of the budget revenues, the second is determination of cash flows ratio at macro-level as well as formation of incomes of country's population, the fourth is the provision of social production in the country economy through the holding of re-division.

III Chapter of research "Optimization of taxes and forecasting of revenues in the Azerbaijan Republic".

Phase of transition to the market relations completed in Azerbaijan economy and within the unified fiscal and budget policy carried out successfully, the improved and modern tax administration system meeting the international world standards was formed.

Çapa imzalanmışdır: 22.05.2015
Formatı: 60/84, 16/1
Sifariş: 76
Sayı: 100

***AMEA Naxçıvan Bölməsinin “Tusi” nəşriyyatında çap edilmişdir***

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**НАХЧЫВАНСКОЕ ОТДЕЛЕНИЕ**

***На правах рукописи***

**ДЖАВИДАН АГАРАГИМ ОГЛЫ РАГИМОВ**

# НАПРАВЛЕНИЯ ПО УЛУЧШЕНИЮ ОПЛАТЫ НАЛОГОВОЙ ЗАДОЛЖЕННОСТИ В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ

**Специальность: 5301.01 – Внутренная фискальная политика и государственные финансы**

**А В Т О Р Е Ф Е Р А Т**

**Диссертации на соискание научной степени доктора философии по экономике**

**НАХЧЫВАН-2015**